Ədəbiyyat qəzeti

4 dekabr 2021-ci il 

# "Bütün yollar Şuşaya aparır" kitabı təqdim olundu

***Noyabrın 22-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda "aybKitab" layihəsinin nəşri, Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondunun dəstəyilə çap olunan "Bütün yollar Şuşaya aparır" kitabının təqdimat mərasimi keçirildi.***






Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid tədbiri açaraq bildirdi ki, məlum olduğu kimi, 2021-ci il avqustun 30-31-də Şuşada Vaqif Poeziya Günləri keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimin açılışında iştirak etdilər. Avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olundu. Bu gün təqdim edilən "Bütün yollar Şuşaya aparır" toplusunda Vaqif Poeziya Günlərindəki çıxışlar, oxunan şeirlər, həmçinin, həmin günlər barədə yazılan məqalələr, reportajlar, poetik təəssüratlar yer alıb.



Diqqətə çatdırıldı ki, kitab Azərbaycan Yazıçılar Birliyinin "aybKitab" layihəsinin nəşridir. Toplunun layihə rəhbəri Xəyal Rza, redaktor və ön söz müəllifi Elçin Hüseynbəyli, materialları düzənləyən Fərid Hüseyndir.

Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış edərək kitabla bağlı düşüncə və təəssüratlarını bölüşdü, Zəfər bayramı münasibətilə iştirakçıları bir daha təbrik etdi: "Bilirsiniz ki, bura Natəvan klubudur, mən hesab edirəm ki, Natəvanın bu gün ruhu şaddır, ona görə ki, bu gün Şuşa azaddır".

Sonra Xalq şairi Nəriman Həsənzadə çıxış edərək dedi: "Mənə 1982-ci ildə Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılmış əzəmətli məqbərənin açılış mərasimində iştirak etmək nəsib olub. O vaxt təntənəli mərasimin açılışına Ulu öndər özü ilə bərabər, mədəniyyət və incəsənət xadimlərinin böyük bir qrupunu da aparmışdı. 39 il sonra Ulu öndərin layiqli varisi, Prezident İlham Əliyev qalib sərkərdə kimi Şuşaya səfər etdi. Həmin görüntüləri izləyəndə çox kövrəldim. Açılış tədbirini bir daha xatırladım, sanki o günü yenidən yaşadım. Biz bu dəqiqə qalib xalqın ruhunda danışırıq. Cənab Prezidentimiz həmişə bizim yanımızdadır, biz də onun yanındayıq. Mən bu kitabda əməyi keçən hər kəsə təşəkkür edirəm".

AYB-nin katibi, kitabın ideya müəllifi Elçin Hüseynbəyli nəşrlə bağlı fikrin Şuşada yarandığını dedi: "Hələ Şuşada ikən qələm dostlarımız Şuşa haqqında yazılar yazacaqlarını deyirdilər. Gördüm ki, artıq 10 yazıçının Şuşa haqda yazısı az qala hazırdır. Orda Fərid Hüseynlə qərara aldıq ki, bu yazıları kitab halında toplayaq. Birliyin sədri Anar müəllim də fikrimizi dəstəklədi və bu cür nəfis kitab ərsəyə gəldi. Müəllifləri təbrik edir, əməyi keçən hər kəsə təşəkkür edirəm".

Yazıçı Səyyad Aran AYB-nin ictimai həyatdakı önəmli rolundan bəhs etdi, təqdimatı keçirilən kitabı da bu faydalı fəaliyyətin növbəti nümunəsi adlandırdı: "Azərbaycandakı bütün ictimai hadisələrə, xüsusən, Qarabağla bağlı olaylara ilkin səs verən qurumlardan biri, bəlkə də birincisi Yazıçılar Birliyidir. Birliyin sədri, Xalq yazıçı Anarın "Ədəbiyyat qəzeti"ndə, "525-ci qəzet"də çap olunan yazıları bunun ən bariz nümunəsidir. Azərbaycan yazıçıları hər zaman öndə olublar. İllər öncə bir müsahibədə jurnalist dəyərli yazıçımız Seyran Səxavətə "Niyə Qarabağ haqda çox yazılar yazılmır?" - deyə sual vermişdi. Seyran müəllim sualı çox müdrikcəsinə cavablandırmışdı: "Qarabağ haqda ən böyük yazını Ali Baş Komandan yazacaq. Onun başçılığıyla Qarabağ azad edildikdən sonra Azərbaycanın şair və yazıçıları da layiqli əsərlər yazacaqlar". Həqiqətən də böyük Qələbəmizdən, Qarabağın azadlığından sonra yaranan yazılar, çap olunan kitablar onun nə dərəcə haqlı olduğunu göstərdi".



S.Aran kitabın adına da diqqət çəkərək, çox uğurlu seçim olduğunu vurğuladı və əlavə edib: "Bu, tarixdə qalacaq bədii sənəddir ki, yenə də öz vaxtında AYB bu hadisələrə səs verdi. Çünki AYB bütün proseslərdə həmişə öndədir".

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini Aygün Bağırlı qeyd etdi ki, bu mövzu müqəddəsdir. Şuşa ruhumuzun paytaxtıdır. Cənab Prezident xarici mediaya müsahibəsində "Şuşasız bizim işimiz yarımçıq qalardı" demişdi. Sağ olsun ordumuz ki, bu işimizi yarımçıq qoymadı.

"Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan çıxışında Şuşada doğulmuş ictimai-siyasi xadim, böyük turançı Əhməd bəy Ağaoğlunu xatırladı: "Çox şükür ki, bu gün biz Şuşaya Əhməd Ağaoğlu düşüncəsiylə gedirik. "Quran"da deyilir ki, "Qədr gecəsi min aydan xeyirlidir". Bəlkə də bu ayənin təsiriylə "əsrə bərabər gün" ifadəsi yaranıb. Bizim Şuşada keçirdiyimiz günləri məhz bu ifadə ən gözəl şəkildə şərh edir. Bəli, bu, əsrə bərabər gün idi. Şükür ki, bu günü yaşamaq bizə qismət oldu".

A.Turan belə bir kitabı hazırladığına görə Elçin Hüseynbəyliyə təşəkkür etdi, onu da diqqətə çatdırdı ki: "Bu, təkcə yadigar deyil, gələcək romanlara mənbə olacaq kitabdır".

MİMTA Fondunun rəhbəri Pərviz Əmirov çıxışında fondun fəaliyyəti haqqında geniş məlumat verdi və Şuşa haqqında belə bir kitabın çapında fond olaraq dəstəklərini bildirməkdən məmnunluğunu ifadə etdi, bunu vətəndaşlıq borcu adlandırdı. Fond olaraq hər zaman mədəniyyətin təbliğində dəstəyə hazır olduqlarını vurğulaydı.

Daha sonra kitabın tərtibatçısı Fərid Hüseyn çıxış edərək materialların toplanma prosesindən danışdı və kitabın önəmindən bəhs etdi.

"AybKitab" layihəsinin rəhbəri Xəyal Rza çıxışında qeyd etdi ki: "Layihə çərçivəsində bu günə kimi 200-dən çox kitab çap olunub. Amma etiraf etməliyəm ki, mənimçün onların heç biri bu kitabı əvəz edə bilməz. Mənimçün heç bir yer Şuşa qədər müqəddəs və əziz deyil". X.Rza kitabın gələcəkdə dərs vəsaiti kimi də önəmli ola biləcəyini vurğuladı.

Daha sonra Yunus Oğuz, Ələmdar Cabbarlı, Akif Cabbarlı, Vüsal Nuru, İbrahim İlyaslı, Vaqif Əlixanlı, Gülnarə Cəmaləddin və Şahanə Müşfiq çıxış edərək kitabın məziyyətlərindən danışdılar, bu işdə zəhməti olan hər kəsə təşəkkürlərini bildirdilər.

Qeyd edək ki, kitab Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxış nitqi ilə açılır.

**Sərvaz**